Azərbaycanlı Gənclərin Ümumdünya Həmrəylik Forumunun iştirakçılarının

Bəyanatı

*Biz, doğma vətənimizdə həmçinin xarici ölkələrdə yaşayan və təhsil alan Azərbaycanlı gənclər, o cümlədən aparıcı gənclər və diaspor təşkilatlarının təmşilçiləri Azərbaycanlı Gənclərin Ümumdünya Həmrəylik Forumunda bir araya gələrək, Ermənistan silahlı qüvvələrinin iyulun 12-dən etibarən Azərbaycan-Ermənistan sərhəddinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatı Azərbaycan gəncləri adından qətiyyətlə pisləyir və aşağıdakıları bəyan edirik:*

1) *Bütün dünyanın COVID-19 virusu ilə mübarizə apardığı bir dönəmdə Ermənistan silahlı qüvvələri tərəfindən təxribatın törədilməsi, dinc əhalinin və ordumuzun bölmələrinin artilleriya atəşinə tutulması işğalçı dövlətin illərdir davam etməkdə olan məkrli siyasətinin aydın təzahürüdür. Məqsəd 1990-1993-cü illərdə olduğu kimi, Azərbaycanın torpaqlarını işğal etmək, dinc azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə həyata keçirtməkdən ibarətdir. Azərbaycan Respublikası Prezidentinin bəyan etdiyi kimi, Azərbaycan dövləti və xalqı heç zaman bu işğalla barışmayacaq.* ***Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq biz - Azərbaycan gəncləri bəyan edirik ki, xalqımıza və dövlətimizə yönəlmiş Ermənistanın bütün təxribatlarına qarşı Azərbaycan dövlətinin yanındayıq, ölkə başçısı, Ali Baş Komandanın istənilən əmrinə hazırıq.***
2) *14-15 iyul tarixlərində bütün iri şəhər və rayonlarda Azərbaycan Ordusuna dəstək məqsədilə on minlərlə vətəndaşın yürüşü xalqımızın həmrəy etirazının, həmçinin xalq və hakimiyyət birliyinin göstəricisi kimi tarixə yazıldı. Ermənistan silahlı birləşmələrinin gözlənilməz və hiyləgər hücumuna qarşı rəşadət və şərəflə döyüşən Azərbaycan ordusu ilə həmrəyliyimizi bir daha ifadə edirik, bizim ürəyimiz sizinlə döyünür! Son döyüşlərdə qəhrəmanlıqla şəhid olmuş hərbçilərimizə Allahdan rəhmət,*

*yaralanmış qardaşlarımıza isə şəfa diləyirik!* ***Ölkəmizə qarşı hərbi təcavüz cəhdlərinin dəf edilməsi, işğal altında olan torpaqlarımızın azad olunması, mülki insanların müdafiə olunması Azərbaycan dövlətinin beynəlxalq hüquqdan irəli gələn təbii haqqıdır və ordumuzun bu istiqamətdə bütün fəaliyyətini dəstəkləyirik və təqdir edirik***.

**3)** *Azərbaycan ərazisində mülki insanları, onların evlərini hədəfə alan ağır artileriya atəşi nəticəsində dinc sakinin qətl edilməsi, onlarla evin dağıdılması beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması və insanlıq əleyhinə cinayət kimi qəbul edilməli və büynəlxalq ictimaiyyət tərəfindən sərt şəkildə qınanılmalıdır!*

**4)** *Nüfuzlu beynəlxalq və regional təşkilatların Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən və işğal edilmiş ərazilərin qeyd-şərtsiz boşaldılması ilə bağlı qəbul etdiyi qərarlarına baxmayaraq, Ermənistan 30 ilə yaxındır ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 rayonu işğal altında saxlamaqda davam edir. Münaqişə nəticəsində öz tarixi yurdlarından didərgin salınmış bir milyondan artıq azərbaycanlı on illilərdir ki, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilmişdir.* ***Biz beynəlxalq təşkilatlara müraciət edərək, Ermənistan dövlətinin öz beynəlxalq öhdəliklərinə və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı, BMT Baş Assambleyasının 62/243 saylı qətnaməsinə, eləcə də digər beynəlxalq təşkilatlarının Dağlıq Qarbağla bağlı qərarlarına riayət etməsinə məcbur edilməsi məqsədilə işğalçı dövlətə təzyiq etməyə çağırırıq!***

**5)** *Erməni təxribatının ilk günündən etibarən bir sıra beynəlxalq təşkilatlar və dövlətlər işğalçı dövlətin bu addımını pisləyən, Azərbaycanın ərazi bütövlüyünü və dövlətimizin təxribata qarşı adekvat addımlarını dəstəkləyən bəyanatlar verdilər. Beynəlxalq ictimaiyyət, dost və strateji müttəfiqlərimizin qətiyyətli dəstək və ədalətsizliyə qarşı reaksiyaları xalqımız tərəfindən ədalətin təntənəsi kimi qəbul edilmişdir. Təəssüf ki,*

*işğalçılıq siyasəti yürüdənlərin təcavüzkar xisləti ədaləti dəstəkləyən dövlətləri də hədəfə aldı. Azərbaycanla həmrəyliyini bəyan edən Ukraynanın İrəvandakı Səfirliyi Ermənistanın dövlət qurumları tərəfindən təşkil və təhrik edilmiş bir qrup tərəfindən hücuma məruz qaldı.* ***Ədaləti və beynəlxalq hüququ rəhbər tutaraq, işğalçı dövlətə yerini göstərən bütün dost ölkələrin xalqlarına və hökumətlərinə Azərbaycan gəncliyi adından təşəkkürümüzü bildiririk!***

6) *Erməni təxribatının ilk günündən etibarən Azərbaycan xalqı və dünya azərbaycanlıları ölkə daxilində və xaricində çoxsaylı nümayiş və yürüşlər keçirdilər. Diaspor təşkilatlarımız dünyanın dörd bir tərəfində ermənilərin yalan kampaniyalarına qarşı çıxışlar etdilər. Bu günlərdə bütün dünyada yaşayan soydaşlarımız bir səslə QARABAĞ AZƏRBAYCANDIR! dedilər. Bu dinc aksiyalarda – London, Brüsell və Los Ancelesdə gənclərimiz ermənilərin xain hücumlarına məruz qaldılar. Nəticədə ağır bədən xəsarətləri alan həmvətənlərimiz xəstəxanalara yerləşdirildilər.* ***Biz ABŞ, Birləşmiş Krallıq və Belçika hökumətlərinə müraciət edərək, dinc aksiya iştirakçılarına hücum edən azğınlaşmış radikal erməni qruplarına qarşı tədbirlər görməyə və günahkarların məsuliyyətə cəlb olunmasına çağırırıq!***

7) *Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal edilmiş, hər onuncu vətəndaş məcburi köçkünə çevrilmişdir. Son təxribat bir daha göstərdi ki, Ermənistan hakimiyyəti işğal siyasətindən nəinki əl çəkmək niyyətindədir, əksinə, ölkəmizə qarşı yeni ərazi iddiaları ilə çıxış etmək məqsədi daşıyır. Təssüf ki, bu gün erməni diasporu, həmçinin beynəlxalq hüquq və ədalətə deyil, erməni maraqlarına xidmət edən bir sıra qruplar, təşkilatlar və siyasətçilər ölkəmizə qarşı çirkin kampaniya aparmaqdadırlar. Bu kampaniyanın məğzində Ermənistan-Azərbaycan münaqişəsinin dünya ictimaiyyətinə fərqli şəkildə çatdırılması, mədəniyyətimizin beşiyi olan Dağlıq Qarabağın və bütövlükdə Azərbaycan*

*xalqının tarixinin təhrif olunması dayanır. Erməni yalanları sosial şəbəkələrdə müxtəlif adlar altında yayılmaqda davam edir. Bir neçə gün öncə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müraciətində deyildiyi kimi, bu gün hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir, həm də nəinki yalnız döyüş meydanında, həm də kompüter qarşısında!* ***İşğalın beynəlxalq təşkilatlar, böyük dövlətlərin liderləri, beynəlxalq ictimai xadimlər, xarici ölkələrin beyin mərkəzləri, qabaqcıl ali təhsil müəssisələrinin diqqətinə çatdırmaq üçün bütün ictimaiyyəti sosial şəbəkələrdə fəal olmağa və #StopArmenianAggression #KarabakhisAzerbaijan #StopArmenianaggression həştəqləri ilə paylaşımlar etməyə çağırırıq!***

**Şəhidlər ölməz, vətən bölünməz!**

**Qarabağ Azərbaycandır!**

**Biz birlikdə güclüyük!**